

# Tokioda tarix yazan paralimpiyaçılarımız

## Onların uğuru şərəfinə 19 dəfə Azərbaycan bayrağı qaldırıldı, 14 dəfə dövlət himni səsləndirildi

***Məqsəd və hədəf imkanlara uyğun olmayanda arzu olaraq qalır. Tokio 2020 XVI Yay Paralimpiya Oyunları başa çatdı. Azərbaycan paralimpiyaçılarının əzmi, iradəsi yüzlərlə idmançı üçün əlçatmaz olan arzunu gerçəkləşdirdi, imkansız görünənin mümkün olduğunu sübut etdi. İdmançılarımızın şərəfinə Azərbaycan bayrağı Olimpiya salonlarında dalğalandı, dövlət himni səsləndirildi.***

Azərbaycan Milli Paralimpiya Komandası uğurlu nəticə nümayiş etdirərək yarışı 163 ölkə arasından 10-cu pillədə tamamladı. İdmançılarımız 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla ümumilikdə 19 medal qazanaraq Azərbaycan Paralimpiya tarixində rekorda imza atdılar. Azərbaycan Ordusunun II Qarabağ müharibəsində Zəfərindən sonra paralimpiyaçılarımızın möhtəşəm qələbəsi xalqımızın qürurla, fəxrlə yaşadığı böyük hadisə, tarixi nailiyyətdir.

Mümkünsüzün mümkün olduğu prinsipini nümayiş etdirdirən



Azərbaycan Milli Paralimpiya Komandasının uğurunu şərh etməzdən əvvəl, yalnız fiziki məhduduyyətli şəxslərin iştirak etdikləri yarışların meydana gəlməsinin tarixinə qısaca nəzər salaq.

Paralimpiya Oyunları ingilis neyrocərrahı Lüdviq Quttmanın adı ilə bağlıdır. O, fiziki məhdudiyyətli insanlar barəsində çoxəsrlik stereotipləri aradan qaldıraraq, idman vasitəsilə onurğa beyni zədələnmiş insanların səhhətinin bərpası prosesinə töhfələr verib. Doktor Quttman sübuta yetirib ki, idman fiziki qüsurlara malik insanlara uğurlu həyat fəaliyyəti üçün şərait yaradır, psixi tarazlığı bərpa edir. Qüsurlara baxmayaraq onlara tam dəyərli həyata qayıtmaq imkanı verir.

Lüdviq Quttman İkinci Dünya müharibəsi zamanı İngiltərənin Eylsberi şəhərindəki Stok-Mandevil hospitalının bazasında onurğa zədələrinin müalicəsi üçün mərkəz açır. Burada əlil arabalarında oturan idmançılar üçün oxatma üzrə ilk yarışlar keçirilir. İflic olmuş 16 kişi və qadından, keçmiş hərbi qulluqçulardan ibarət qrup 1948-ci il iyulun 28-də idmanın bütün tarixi ərzində ilk dəfə olaraq yarışlarda iştirak edir. 1952-ci ildə Hollandiyanın keçmiş hərbi qulluqçuları bu hərəkata qoşularaq, dayaq-hərəkət aparatı pozulmuş adamların Beynəlxalq İdman Federasiyasını yaradırlar. 1956-cı ildə Lüdviq Quttman idmançılar xartiyasını hazırlayır, bu növ idmanının daha da inkişaf etməsi üçün əsaslar formalaşdırır. 1960-cı ildə Ümumdünya Hərbi Qulluqçular Federasiyasının himayəsi ilə beynəlxalq işçi qrup yaradılır. Elə həmin il Romada fiziki məhdudiyyətli şəxslərin ilk beynəlxalq yarışları keçirilir.Yarışlarda 23 ölkədən 400 idmançı iştirak edir.

1964-cü ildə fiziki məhdudiyyətli şəxslərin Beynəlxalq İdman Təşkilatı yaradılır və 16 ölkə bu təşkilata qoşulur. Həmin il Tokioda idmanın 7 növü üzrə keçirilən yarışlarda ilk dəfə olaraq rəsmi surətdə bayraq qaldırılır, himn səsləndirilir və oyunların rəsmi emblemi elan edilir. Zəka, möhkəm bədən və yenilməz ruhu ifadə edən qırmızı, göy və yaşıl yarımkürələr dünya paraolimpiya hərəkatının qrafik rəmzi olur.

1976-cı ildən isə onurğa zədələri olan idmançılara digər fiziki məhdudiyyətli idmançılar - gözdən əlil və ətrafları amputasiya edilmiş şəxslər də qoşulur. Hər növbəti oyunlardan sonra iştirakçıların sayı artır, ölkələrin coğrafiyası genişlənir, proqrama yeni-yeni idman növləri daxil edilir. 1988-ci ildə Seulda keçirilmiş beynəlxalq oyunlarda fiziki məhdudiyyətli idmançılara sağlam olimpiyaçıların mübarizə apardıqları yay Oyunlarının idman qurğularında yarışmaq hüququ verilir. Məhz həmin vaxtdan yarışlar sağlam olimpiyaçıların mübarizə apardıqları idman qurğularında keçirilməyə başlayır. 1982-ci ildə Paralimpiya oyunlarının miqyasının genişlənməsinə təkan verən bir orqan - əlillərin Ümumdünya İdman Təşkilatının Beynəlxalq Əlaqələndirmə Komitəsi yaradılır. 1992-ci ildə təşkil edilən Beynəlxalq Paralimpiya Komitəsi onun hüquqi varisidir.

Ölkəmizin paralimpiyaçıları Paralimpiya Oyunlarında 7 dəfə iştirak ediblər. Sonuncu Paralimpiya Oyunlarına qədər Azərbaycanı bu beynəlxalq oyunlarda 83 idmançı təmsil edərək 38 medal (9 qızıl, 18 gümüş və 11 bürünc) qazanıb.









Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarında 36 idmançı (24 kişi və 12 qadın, 7 nəfər əlil arabasında) 47 mükafat dəsti uğrunda mübarizə aparıb. Nəticələr idmançılarımızın fiziki və psixoloji cəhətdən tam hazırlığını nümayiş etdirdi. Milli komandamızın bayraqdarı Lamiyə Vəliyeva Tokio Paralimpiya Oyunlarının həm qızıl (T13 400 m - Paralimpiya rekordu), həm də gümüş (T13 100 m) mükafatçısıdır. Şəhanə Hacıyeva, Saleh Raman, Vüqar Şirinli, Sevda Vəliyeva, Xanım Hüseynova, Hüseyn Rəhimli, Həmid Heydəri, Elvin Astanov, Dürsədəf Kərimova, Vəli İsrafilov, Lamiyə Vəliyeva, Orxan Aslanov qızıl, Lamiyə Vəliyeva gümüş, Pərvin Məmmədov, Namiq Abaslı, İlham Zəkiyev, Səid Nəcəfzadə bürünc medal qazanan idmançılarımızdır.

Tokio Paralimpiya Oyunlarında idmançılarımızın bir sıra rekord nəticələrini xüsusi qeyd etmək istərdik: Atletika idman növü üzrə idmançımız Həmid Heydəri (F57) nizə atma növü üzrə 51.42 m nəticə göstərərək dünya rekorduna imza atıb. Atletika idman növü üzrə idmançımız Elvin Astanov (F53 - yadro itələmə) növü üzrə 8.77 metr nəticə göstərərək dünya rekordunu yeniləyib. Üzgüçülük idman növü üzrə təmsilçimiz Vəli İsrafilov (S12 – 100 metr brass) 1:04.86 nəticə ilə Paralimpiya rekorduna imza atıb. Atletika idman növü üzrə idmançı Lamiyə Vəliyeva (T13) 400 metr məsafəyə Paralimpiya rekordunu yeniləyib. Qeyd edək ki, üzgüçülük idman növü üzrə təmsilçimiz Raman Saleh 3 kateqoriyada (S12 100 metr arxasıüstə, S12 100 metr sərbəst, S12 100 metr batterflyay) qızıl medal qazanıb.

İlk dəfə olaraq 1996-cı ildə Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında cəmi iki idman növü üzrə iki idmançı ilə iştirak etmiş Azərbaycan Milli Paralimpiya Komitəsinin 36 nəfərlik komanda ilə təmsil olunduğu Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarında 14-ü qızıl olmaqla 19 medal qazanması təsadüfi deyil. İlk növbədə, paralimpiyaçılarımızın fədakarlığı, onların iradəsi qələbənin başlıca səbəbidir. Bu, idmanşılarımızın iddiasının, əzminin, iradəsinin, gərgin məşq proseslərinin nəticəsidir. Digər tərəfdən mühit və şərait, kompleks fəaliyyət mexanizmi, diqqət və qayğı olmasaydı nəticə bu qədər ürəkaçan olmazdı.

İdmanın inkişafı dövlət siyasətinin prioritetləri sırasındadır. Müstəqilliyimizin bərpasının ilk illərində Bədən tərbiyəsi və İdman haqqında Azərbaycan Pespublikasının Qanunu, qəbul edilən digər normativ aktlar mövcüd idman strategiyanın hüquqi əsaslarıdır. Məqsəd bədən tərbiyəsi və idman vasitəsi ilə insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin etmək, xəstəliklərin, zərərli vərdişlərin qarşısını almaq, əhalinin yüksək əmək qabiliyyəti səviyyəsinə, fəal uzunömürlülüyünə şərait yaratmaqdır. Eyni zamanda, beynəlxalq aləmdə Azərbaycan idmanının nüfuzunun yüksəldilməsinə nail olmaq və gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlamaqdır. Eyni zamanda bu da faktdır ki, Prezident İlham Əliyev idmana və idmançılarımıza böyük dəstək göstərir. Ölkəmizin qatıldığı bütün mötəbər yarışlarda, beynəlxalq idman arenalarında idmançılarımızın iştirakı ölkə prezidentinin bilavasitə diqqətindədir. Cənab Prezidentin Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarında idmançılarımızın uğurlarına münasibət bildirməsi, onların hər birinin qalibiyyətinə diqqət yetirib tək-tək təbrik ünvanlaması pararalimpiyaçılarımızı qələbəyə ruhlandıran mənəvi-psixoloji amillər sırasındadır. Prezident İlham Əliyev tərəfindən sentyabrın 6-da XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə əlilliyi olan idmançılar və onların məşqçiləri üçün mükafatlar müəyyən edilməsi, eləcə də milli Paralimpiya komandamızın üzvlərinin təltif olunması idmana və idmançılara dövlət qayğısının parlaq təcəssümüdür.

Tokioda yazılan tarix həm də Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin səmərəli fəaliyyətinin göstəricisidir. Bu qələbə, hazırda yüzlərlə idmançını özündə birləşdirən Paralimpiya Komitəsinin tədqirələyiq uğurudur. Uğurlu nəticə ümumən komandanın illər ərzində qazandığı təcrübəsi, bilikləri və böyük peşəkarlığı sayəsində mümkün oldu.

2008-ci ildə Sumqayıtda açılan, MDB məkanında bütün beynəlxalq standartlara cavab verən ilk Paralimpiya İdman Kompleksi Azərbaycan paralimpiyaçılarının yarışlara hazırlanmasında, məşq prosesində mühüm rol oynayır. 2013- cü il sentyabrın 27-də Beynəlxalq təcrübədə ilk dəfə olaraq Uşaq Paralimpiya Komitəsinin yaradılması qələbələrə aparan yolun cığırlarını qoyur. Uşaq Paralimpiya Komitəsi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanmasını və cəmiyyətə inteqrasiyasını təmin edir. Təsadüfi deyil ki, Tokioda Paralimpiya rekorduna imza atan 18 yaşlı Vəli İsrafilov Uşaq Paralimpiya Komitəsinin yetirməsidir.

Gələcəkdə Azərbaycanın hər bir bölgəsində Paralimpiya idman növləri üzrə xüsusi məktəblər və təlim mərkəzlərinin yaradılması, fiziki məhdudiyyətli şəxslər üçün idman və reabilitasiya sisteminin təşkili Azərbaycan idmanına daha böyük töhfələr verə bilər. Tokioda paralimpiyaçılarımızın qələbəsi fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasıyası, sosiallaşması, beynəlxalq arenalarda təmsil olunması baxımından böyük stimul verir.

*Leyla MƏMMƏDOVA,*
*"Xalq qəzeti"*